# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

**Fəlsəfi-sinergetik təhlil**

**XI məqalə**

**Uğurlu milli liderlər tarix yazmırlar, özləri tarixiləşməklə tarix yaradırlar.**

**Müəllif**

## Ümummilli həmrəylik: siyasi sinerjinin yeni transformasiyası



X məqalədə siyasi və seçki həmrəyliyinin siyasi sinerji vasitəsi ilə qalıcı ictimai həmrəyliyə transformasiya olması imkanlarının fəlsəfi-sinergetik araşdırılmasının aktuallığını vurğulamışdıq. Liderliyin bu aspektinin fəlsəfi dərki yenidir. Çünki problem kifayət qədər dərin sosial-mədəni və siyasi qatlarda oturuşmuş müxtəlif xarakterli faktorlara bağlıdır. Bununla yanaşı, ona uğurlu liderlik prizmasında yanaşılırsa, hər hansı araşdırma təcrübəsinin olmadığı şəraitdə adekvat anlamı olduqca çətindir.

Lakin Azərbaycanla bağlı bu mürəkkəb idraki situasiyanı xeyli aydınlaşdıran və arqumentlərlə zəngin bir reallıq mövcuddur. Həmin gerçəklik Azərbaycan liderinin eksklüziv olaraq ümummilli həmrəylik yaratmağa istiqamətlənmiş fəaliyyət göstərməsi ilə əlaqəlidir. Burada fəlsəfi və politoloji olaraq, situasiyanı daha aydın təsəvvür etmək üçün bir nəzəri məqama müraciət etməyə ehtiyac vardır.

## a) Yaradıcı şəxsiyyət və tarix: fransız və anqlo-saks yanaşması

Əslində fransızlar, ingilislər və amerikalılar məsələyə daha geniş aspektdə – ümumiyyətlə, yaradıcı şəxsiyyət–tarix kontekstində baxırlar. Biz isə onu konkret olaraq siyasi-milli liderlərin yaradıcı şəxsiyyətlər kimi tarixi olaraq necə qiymətləndirilməsi aspektində təhlil edirik. Əlbəttə, problem yeni olması ilə yanaşı, tədqiqat təcrübəsinin istisnalılığı səbəbindən çətin araşdırılandır. Lakin əlimizdə güclü bir siyasi-praktiki arqument var: Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu liderlik təcrübəsi! Buna görə də öncə fransız və anqlo-saks nəzəri araşdırma üsuluna baxaq.

Fransız filosoflara görə, yaradıcı şəxsiyyət–tarix münasibətlərində insanın rolunu şəxsin canlı fəaliyyəti müəyyənləşdirir. Ona görə də hər hansı böyük şəxsiyyətə tarixi qiymət vermək və onu fəlsəfi dəyərləndirmək üçün insanın fəaliyyətini konkret müəyyənedici məqamlarına, alınan nəticələrə baxmaq lazımdır.

Anqlo-saks məktəbi, prinsipcə, bu mövqeyə etiraz etmir, ancaq heç bir insan əbədi deyildir. Buna görə də hər hansı yaradıcı şəxsin fəlsəfi dəyərləndirilməsində onun ideyası, fəaliyyəti və bu məqamları araşdıran tədqiqatçının interpretasiyası nəzərə alınmalıdır. Belə çıxır ki, anqlo-saks məktəbində yaradıcı subyektin ideyası və həyata keçirdiyi fəaliyyəti sintez halında götürülür. Bəs burada həmin sintezin qiymətləndirilməsi hansı hallarda fəlsəfi-elmi adlandırıla bilər? Məhz mövcud məqamda anqlo-saks məktəbi yaradıcı şəxsiyyəti araşdıran tədqiqatçının "yaradıcı interpretator" olmasını və nəticə kontekstində şəxsiyyəti qiymətləndirməli olduğu şərtini qoyur. Eyni zamanda, tədqiqatçı ümumi ictimai faydalılığına görə də yaradıcı şəxsiyyətin fəaliyyətini fəlsəfi dərk etməlidir.

Çox qısa ifadə etdiyimiz bu məqamlardan belə nəticə alınır ki, fransız və anqlo-saks məktəbləri üçün ortaq olan məqam yaradıcı şəxsiyyətin (fəaliyyət sahəsindən asılı olmayaraq) şəxsi keyfiyyətləri, zəkavi və intellektual özəllikləri və yaşadığı müddətdə aldığı nəticələri ilə ideyası, niyyəti, məfkurəsi və onun sosial faydalılığı qarşılıqlı əlaqədə qiymətləndirilməlidir. Bu zaman həmin şəxsin yaradıcılığını (fəaliyyətini) araşdıran subyektin özü də yaradıcı interpretator olmalıdır. Bu statusda interpretator, faktiki olaraq, şəxsiyyətin fəaliyyətinin fəlsəfəsini yaratmış olur.

## b) Siyasi-milli lider və tarix: iki məktəbin sintezində araşdırma

Qısa da olsa, vurğulanan fəlsəfi məqamların politoloji tətbiqi (daha doğrusu, yaradıcı interpretasiyası) mümkündürmü? Bizcə, nəinki mümkündür, hətta Prezident İlham Əliyevin siyasi-milli lider kimi fəaliyyətinin siyasi-nəzəri dərki üçün aktualdır.

Deməli, öncə, siyasi-milli liderin şəxsiyyəti və canlı fəaliyyətinin məzmunu önəmlidir. İlham Əliyev ünsiyyətdə olduqca qabiliyyətli olduğunu praktiki fəaliyyətində sübut etmişdir. Araşdırmaçılar Azərbaycan Prezidentinin dünyanın böyük dövlətlərinin liderləri ilə, kifayət qədər, yüksək səviyyədə ünsiyyət qurduğunu və buna görə də daim uğurlar qazandığını vurğulayırlar. Müasir tarixi mərhələdə siyasi-milli liderlərin şəxsiyyətinin bu keyfiyyətini dünyanın tanınmış lideroloqları da ayrıca tədqiq edirlər. Bir nümunə göstərək.

Professor Fred İrvin Qrinstayn siyasi psixologiya üzrə aparıcı mütəxəssislərdən biri kimi qəbul edilir. O, siyasi liderliyi araşdırır. Ayrıca, Amerika prezidentliyinin özəl politoloji, psixoloji və fəlsəfi araşdırmaçısıdır. Böyük siyasi xadimlərin liderlik keyfiyyətlərini tədqiq etmək istiqamətində təcrübəsi çoxdur. Hazırda ABŞ-ın Prinston Universitetinin nəzdində olan Vudro Vilson adına məktəbdə siyasi liderliyi öyrənmə Proqramının rəhbəridir.

F.İ.Qrinstayna görə, keçmişdə analoqu olmayan yeni siyasi vəziyyət yarananda liderin rolu xüsusi əhəmiyyət kəsb edir. Bu zaman situasiyanı mürəkkəb və ziddiyyətli edən faktorların təsiri nəticəsində lider fərqli siyasi həll yolları təklif edən müxtəlif qüvvələr arasında seçim etməlidir. Məhz bu cür bifurkasion ("haçalanmış") durumlarda liderin şəxsi keyfiyyətləri özünü maksimal dərəcədə göstərir. Lideroloq hesab edir ki, liderin təkliflərinə mühit nə qədər həssas reaksiya verirsə, onun şəxsiyyəti daha çox əhəmiyyət kəsb edir. Bununla liderin siyasi sistemdə mövqeyi daha çox legitim və yüksək olur. Həm də bu o deməkdir ki, liderin daxili "Mən"i çox güclü təsirə malikdir!

Sonra, F.İ.Qrinstayn bir qədər də irəli gedərək liderin hansı şəxsi keyfiyyətlərinin bu prosesdə əsas rol oynadığını araşdırır. Onun gəldiyi qənaətə görə, liderin ünsiyyət qabiliyyəti, təşkilatçılıq istedadı, siyasi məharəti, siyasi öncəgörmə potensialı, düşüncə tərzi (məsələn, siyasi ritorika, diplomatik ifadə tərzi və s.) və duyğusal dayanıqlılığı həlledici rol oynayır!

Liderin şəxsi keyfiyyətlərinin, ilk növbədə, ünsiyyət qabiliyyətinin müasir mərhələdə uğur qazanmağın başlıca faktorlarından biri olduğunu yalnız F.İ.Qrinstayn deyil, çoxlu sayda filosof, lideroloq və politoloqlar vurğulayırlar (onların sırasında, S. və T.Kuçmarskiləri, B.Kellermanı, A.Braunu, Q.Feyrholmu, K.Hockinsonu, E.V.Kudryaşovanı və başqalarını qeyd etmək olar).

Bəlkə elə bu kimi ümumfəlsəfi və siyasi fikirlərin təsiri ilə "Facebook"un əməliyyat direktoru Şeril Sandberq (Sheryl Sandberg) belə qənaətə gəlmişdir ki, "həqiqi liderlik fərdilikdən boy atır"!

## c) İlham Əliyevin iki böyük həmləsi: siyasi sinerjidə yeni tarixi mərhələnin başlanğıcı

Problemin nəzəri-elmi aspektini dərinləşdirmədən Prezident İlham Əliyevin təsvir edilən faktorlar prizmasında fəaliyyətinin konkret tərəflərinə baxaq.

Beləliklə, əsl liderin böhranlı durumlarda, qarşıya öncələr rast gəlinməyən yeni geosiyasi və siyasi şərtlər çıxanda, bütövlükdə, analoqu olmayan mühitdə fəaliyyət göstərmək məcburiyyətində qalanda, ünsiyyətçilliyi, iradəsi, zəkası ilə praqmatik pozitiv qərar qəbuletmə qüdrəti özünü vəhdətdə göstərməlidir. 2003-cü ildə İlham Əliyev ilk dəfə Azərbaycan Prezidenti seçiləndə, məhz bu cür vəziyyət mövcud idi. İlham Əliyevin, eyni zamanda, iki ciddi vəzifənin öhdəsindən gəlməsi lazım idi.

Birincisi, Azərbaycanın daxilində sosial, siyasi və mənəvi-əxlaqi həmrəyliyini yeni səviyyəyə yüksəltmək. Çünki qarşıda işğala son qoymaq kimi çətin bir vəzifə vardı. Keçən əsrin ikinci yarısından bu yana olan təcrübə göstərirdi ki, Azərbaycan kimi təcavüzə məruz qalmış dövlətlərin ərazi bütövlüklərini bərpa etməsi və suverenliyinin tam təminatına nail olması olduqca mürəkkəb və çətin bir işdir. Buna görə hər şeydən öncə cəmiyyətin daxili birliyi, monolitliyi zəruri idi. Burada da "birlik" və "monolitlik" nə ənənəvi, nə də sovet dövrünə analoji ola bilməzdi. Çünki bütövlükdə dünyada və regionda yeni situasiya formalaşmışdı və XXI əsr özünəxas çağırışlarla xarakterizə olunurdu. Bu səbəbdən Azərbaycan da daxil olmaqla postsovet məkanında təcrübədə olmayan yeni birlik və monolitlik modeli – siyasi, sosial, mədəni, ideoloji, mənəvi-əxlaqi sinerji sistemi yaradılmalı idi. Bundan başqa, vəziyyəti çətinləşdirən Azərbaycanın daxilində, erməni işğalından istifadə edərək, etnik radikal separatizmi alovlandırmağa çalışan qrupların varlığı idi. Onlar kənardan himayə olunur və yönləndirilirdilər.

Prezident İlham Əliyev belə bir olduqca çətin vəzifənin öhdəsindən gəlmək üçün xüsusi strategiya hazırladı. Konkret olaraq, öz vətəndaşları, cəmiyyətin bütün kəsimləri ilə daxili dialoqu dərinləşdirdi və genişləndirdi. Çox qısa müddətdə bu metod öz müsbət bəhrəsini verdi – bütün cəmiyyət dövlət başçısını dinlədi və onu dəstəklədi. Bu uğur kənardakı və Azərbaycana dost olmaq istəməyən bir sıra qüvvələri çox həyəcanlandırdı və onlar yaranmış həmrəyliyi pozmaq üçün müxtəlif istiqamətlərdən hücuma keçdilər!

Lakin elə ilk həmlədən İlham Əliyevin daxili həmrəylik səviyyəsini yüksəltmək üçün böyük uğurla tətbiq etdiyi mexanizmlərin sərt müqavimətinə rast gəldilər. Həmin mexanizmlər multikulturalizm və azərbaycançılıq fenomenləri ilə əlaqəlidir! Prezident statusunda İlham Əliyev multikulturalizmi Azərbaycan cəmiyyətinin birgəyaşam formasına çevirdi və bunu dövlət səviyyəsində həyata keçirilən siyasət kimi hüquqi baxımdan tam legitimləşdirdi! Postsovet məkanında ikinci nümunəsi olmayan siyasi-taktiki və həm də strateji addım idi!

Azərbaycançılıq isə sözün həqiqi mənasında özünün ideoloji aspektdə geniş birləşdiricilik potensialına malik olduğunu dünyaya nümayiş etdirdi. Onun konkret sübutları 2003-cü ildən başlayaraq, həyata keçirilən və mənəvi-əxlaqi, mədəni, etik, sosial, aksioloji aspektlərlə sıx bağlı olan müxtəlif layihələr, proqramlardır. Burada İham Əliyevin uğurlu siyasi-milli lider kimi başqa bir yüksək keyfiyyəti özünü göstərdi.

Biz, Azərbaycan Prezidentinin multikulturalizm və azərbaycançılığın real nəticə verən dayanıqlı faktorlar kimi aktuallaşmasına nail olmaq üçün planları reallaşdırma imkanlarını nəzərdə tuturuq. Qısa və konkret desək, ideyada mövcud olan bu səmərəli planları həyata keçirmək üçün siyasi iradə və maliyyə lazım idi!

Prezident və lider İlham Əliyev bu iki amili birləşdirərək həm xarici təsirləri neytrallaşdırdı, həm də neft strategiyasını davamlı reallaşdıraraq, daxili tələblər üçün lazım olan maliyyə imkanı yaratdı. 2003-cü ildən başlayaraq, siyasi iradə tələb edən prosesləri xatırlamaq mümkündür. Konkret ifadə etsək, müxtəlif xarici dairələr, gah Azərbaycanı gözdən salmaq üçün onun yanlış obrazını yaratmağa çalışdılar, gah konkret təxribatlara, böhtanlara əl atdılar, gah da enerji layihələrini həyata keçirməyə maneçilik törətməyə cəhdlər göstərdilər. Buna görə də qısa müddətdə İlham Əliyevin dəfələrlə Gürcüstana səfər etməsi və orada enerji, nəqliyyat-loqistika layihələrinin həyata keçməsi üçün lazımi addımlar atması və eyni zamanda, dəfələrlə Türkiyəyə, Rusiyaya, Avropa ölkələrinə səfərləri düşünülmüş strategiyanın taktiki fraqmentləri idi! Nəticə son dərəcə faydalı oldu! Bunu artıq hər kəs bilir!

Beləliklə, İlham Əliyev 2003-cü ildən başlayaraq, özünün şəxsi liderlik keyfiyyətləri (ünsiyyət qurmaq qabiliyyəti, siyasi ritorikada təsiredən olmaq imkanları, siyasi iradə və qətiyyətlilik, strateji zəkaya sahib olmaq, taktika ilə strategiyanı mükəmməl uyğunlaşdırmaq və s.) əsasında Azərbaycanda sosial, siyasi, mənəvi-əxlaqi, psixoloji sinerjini vahid təməldə birləşdirmək istiqamətində nəticəli addımlar atdı!

Bu proses bütövlükdə iki sinerji növünün yaranmasına apardı. Onlardan biri bütün toplumu əhatə edən və güclü inteqrativ funksiya yerinə yetirən "toplumsal sinerji", digəri isə Prezident-siyasi mühit-cəmiyyət vəhdətini təmin edən (və ya bu vəhdəti legitimləşdirən) "Idierlik sinerjisi" idi!

Bununla İlham Əliyev Azərbaycan üçün fransız və anqlo-saks məktəblərinin sintezində konkret yeni liderlik nümunəsi formalaşdırmağa başladı. Bu, ümumiyyətlə, dünya miqyasında yeni liderlik fenomeni idi və özündə xüsusi parametrlər daşıyırdı. Daha da konkretləşdirsək, İlham Əliyev toplumsal sinerji ilə liderlik sinerjisini ümummilli həmrəylik çətiri altında sintez etməli idi! Bu, yeni yolun başlanğıcı və yeni siyasi-milli liderlik təcrübəsinin unikal formasının meydana gəlməsi idi.

Lakin İlham Əliyev bu əhəmiyyətli məqsədə çatmaq üçün birinci ilə yanaşı, ikinci həmləni də etməli idi. Və bu həmlə 2003-cü ildən başlayaraq, birinci vurğuladığımız istiqamətlə – daxili sinerjini yeni ümummilli mərhələyə yüksəltmək xətti ilə paralel və qarşılıqlı əlaqədə edildi! İkinci həmlə istiqaməti xarici siyasəti gücləndirmək əsasında Azərbaycanın regional və qlobal miqyaslarda nüfuzunu bir qədər də yüksəltməklə, onun daha geniş coğrafi məkanlarda geosiyasi rolunu milli təhlükəsizliyin təmin edilməsi kontekstində yeni səviyyəyə qaldırmaqla bağlı idi!

Bu həmləni də etmək üçün özünəməxsus taktiki və strateji mexanizmlərin tətbiqinə ehtiyac duyulurdu. Azərbaycan Prezidenti onları da uğurla müəyyənləşdirdi və tam həyata keçirdi. Həmin mexanizmlər neft strategiyasını inkişaf etdirməklə yanaşı, regional və beynəlxalq təşkilatlarla işləmək xəttinin gücləndirilməsi, yeni geosiyasi dəyərlərin yaradılması, əməkdaşlıq formatlarının irəli sürülməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, böyük geosiyasi güclərlə xüsusi taktikaya uyğun münasibətlərin inkişaf etdirilməsi əsasında, Cənubi Qafqazda milli maraqlarımızın və milli təhlükəsizliyin təminatına xidmət edən yeni geosiyasi mənzərənin formalaşmasına gətirib çıxarmalı idi!

Ümummilli sinerjinin yaranması (və ya qalıcı ictimai həmrəyliyin formalaşması) aspektində bu xəttin geniş tədqiqinə ehtiyac vardır. XII məqalədə bu barədə söhbət açacağıq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***